

***<u>FATEH</u>***

**Fikrim uzaqlara gedir arabir**
**Dönüb qayıdanda tanımaq olmur.**
**Nədəndi görəsən, şair olanda**
**Heç kimin işinə yaramaq olmur.**

**Darıxmaq evimi yıxacaq sonda**
**Bu qoca dünyada yer olmaz mənə.**

**Bu yanda evimi yıxan İlahi,**
**Yəqin, o tərəfdə toxunmaz mənə.**

**Sənin nə yaşın var nə dərdin ola**
**Mənimlə deyinən anam, bilirəm.**
**Sənin böyütdüyün oğul önündə**
**Dinməyə üzüm yox, lalam, bilirəm.**

**Sadəcə, mən bir az qərib adamam,**
**Bəlkə də, sevməyə yoxdu ürəyim.**
**Bəlkə də, ən adi bir hadisədi**
**Bu qoca dünyanı qəribsəməyim.**

**Fikrim uzaqlara gedir arabir,**
**Dönüb qayıdanda tanımaq olmur.**
**Ən böyük düşmən də sənin özünsən.**
**Özünü özündən qorumaq olmur...**

*******

**Mənim kədərimi ikiyə bölmə.**
**Onsuz da gücüm yox dərd azaltmağa.**
**Adıyla böyüsün dedilər əvvəl**
**Sonra düşürtdülər ad ucaltmağa.**

**Mən uşaq cildində qalaydım gərək.**
**Susub oynayardım oyuncaqlarla.**
**Gizlənpaç oynamaq nəyimə lazım**
**Yurdu bilinməyən yad qucaqlarda?**

**Yaxşı ki, şad gündə yoxsan yanımda,**
**Yaxşı ki, uzaqsan bu günümə sən.**
**Özümü göylərə bağışladım ki,**
**Mənim təkliyimi görə biləsən...**

*******

**İlahi, hər şeyi bilirsən amma,**
**Darıxa bilmirsən bir adam kimi.**
**Mən adi şeirlər yazıram, uşaq,**
**Yarada bilmirəm yaradan kimi.**

**Yəqin günahımdan keçər İlahi,**
**Yəqin bağışlayar yazıq adamı.**
**Bəlkə, min il əvvəl məndən də qabaq**
**Tanrıdan küsübmüş azıx adamı...**

**Bilinməz toyu da, yası da bunun,**
**Bir soyuq tər gəzər bədəndə yenə.**
**Yaman üşüyürük, sonuncu ölən**
**Örtməyib qapını gedəndə yenə...**

*******

**Bu adam bənzəməz heç bir adama**
**Üzündən, gözündən yağmayıb şadlıq.**
**Bilirsən, əslində hamı ağıllı,**
**Sadəcə, ikimiz bir az axmağıq.**

**Külək pəncərəni oynadır yenə,**
**Uşağdı elə bil, ağlı da kəsmir.**
**Sən axı bilmirsən, darıxmağımı**
**Ruhumu sızladan ağrı da kəsmir.**

**Yenə saatların kəfkiri yorğun,**
**Yenə zaman durub baxışın altda.**
**İlahi, yadından çıxan balalar**
**İslanır səpdiyin yağışın altda...**

ədalət.- 2021.- 18 mart.- S.7.

